# "Asala" terror təşkilatı yeni müstəvidə





**Mürsəl İrəvanlı,**

**Yazıçı-publisist, M. Qorki adına Beynəlxalq mükafat laureatı Gəncə şəhəri**

***1997-ci ildə Suriyaya mühacirət etmiş, 1999-cu ildən Vaşinqtonda yaşayan, Daşnaqsutun partiyasının Avropa Şurasına üzv ölkələrin ərazisindəki 'Erməni diasporu" ilə əlaqələndiricilərindən olan, hərbi ekspert 'Daşnaqsutun partiyası'nın fəal üzvü, "Asala"nın lideri Sauri Şaginyan "Ağıl" publisistik qeydlərində (Vaşinqton, 'Erməni dirçəlişi" qəzeti, 2001-ci il, fevral) yazır: 'Siz (yəni ermənilər) az danışın daha. Çünki çox iş gördünüz. Dağlıq Qarabağı yenidən diriltdiniz. Ölmüş və yandırılmış cəsədləri diriltdiniz... Dirildib, dünyaya tanıtdığınız əcdadlarınızın qoruqlarını sabah üçün qoruyun. Çünki çox şeyi itirə bilərsiniz. Baxın, görün... Poqosyan qardaşınız haradadır... Sevimli Ambarsumyanı düşünün, şöhrətli Valiyanı, Matevosyanı, Fazilyanı və s. düşünün. Bu və adını çəkmədiyim adamlardan – neçə-neçə qardaş və bacılarımızdan öyrənin. Onların ağılla qorumasaq, hisslərimizə qurban versək, uduzarıq, hər şeyi uduzarıq. Qazandığımızı da, qazanmaq istədiyimizi də... Mən nənəm Marietta Şaginyanın hissə qapılıb yazdığı kitabların yandırmağının şahidiyəm..."***

Erməni eksperti Saurinin xatırladığı Mixail Poqosyana gəlincə, o, Rusiya Federasiyasının prezidentinin sərəncamı ilə "Suxoy" hərbi sənaye kompleksinin baş direktoru təyin olunub. Bu kompleks dünyada analoqu olmayan, "Topol-M" nüvə başlıqlı, uzaqvuran ballistik raketlərin hazırlanmasında aparıcı rol oynayır. Burada həmçinin "S-37" gözəgörünməz təyyarələri hazırlanır, yeni "Miq-29", "Miq-30" bombardmançı təyyarələrin mühərrikləri sınaqdan çıxarılır.

Strateji əhəmiyyətli belə bir kompleksin erməni Mixail Poqosyana həvalə edilməsinə ötəri yanaşmayaq. Mixail Poqosyan 1946-cı ildə Xankəndində anadan olub və Azərbaycan vətəndaşıdır.

O, həm də RF-də erməni diasporuna başçılıq edən liderlərdən biridir. 2000-ci ilin avqustunda on bir dildə çap olunan "Dağlıq Qarabağın erməni diasporu üçün strateji əhəmiyyəti" kitabının müəllifidir. "Beynəlxalq erməni diasporu"nun Paris şöbəsinin (1999-cu il) koordinatorlarından biridir. Və yaxud, Səudiyyə Ərəbistanında ixtisasca tarixçi olan Əşrəfbəy Fazilyanın ermənilərin yenicə (2001-ci il, fevralın 24-ü) yaratdıqları diaspor mərkəzinin yeni koordinatoru təyin edilməsi də maraq doğurmaya bilmir. Hansı ki, Əşrəfbəy Fazilyan elə həmin ərəfədə RF-in Məkkə şəhərinin konsulu təyin olundu. Başqa bir diplomat, Ermənistan Milli Məclisinin keçmiş sədri Babken Araksyan isə erməni diasporunun "Ermənistan-Yaxın Şərq diasporu" üzrə koordinatoru seçildi. Bundan sonra məhz onun topladığı və Livan parlamentinə təqdim etdiyi sənədlər əsasında, parlamentin başçısı Nabih Berrinin şəxsi fəaliyyəti ilə "erməni soyqırımı" adlandırılan bədnam qətnamə qəbul edildi. Yaxın Şərqdə yaranan vəziyyətin tənzimlənməsinə gəlincə isə diplomat Babken Araksyan elan etdi: "...Ermənistan həmişə bəyan etmişdir ki, Yaxın Şərq məsələsinin tənzimlənməsində BMT-nin qəbul etdiyi sənədləri əsas götürür... Bu günədək BMT Yaxın Şərq məsələsi ilə bağlı 842 qətnamə qəbul edib və hamısı da mənasız və heç bir siyasi arenada rola malik deyil".

2000-ci il dekabrın 29-da isə Beyrutda "Ermənistan-Livan-Suriya diaspor"larının "Müdafiə birliyi" adlı təşkilatı yarandı. Yanvarın 16-da isə bu birliyin "Apostol" adlı hərbi qanadı quruldu. Və Azərbaycan istiqamətində belə bir qətnamə qəbul etdilər: *"...Əgər biz müqavimət göstərməli olsaq, onda hücum edən tərəflər kimi müdafiə olunan tərəflər də birləşməlidirlər..." **Erməni katolikosu I Qaregin isə 'Kilsə və erməni diasporu" kitabında yazırdı: "... Livanın erməni icması erməni diasporunun ən sanballı hissəsidir. Livan və Suriya Qərb ermənilərinin böyük bir hissəsinin soyqırımından sonra rahatlıq və sığınacaq tapdıqları ölkələrdir..." (Yerevan. 1999-cu il.)***




Əslində erməni diasporunun yaratdıqları "Müdafiə birliyi" yeni məsələ deyildi. Buna qədər 1991-ci ildə Avropada (mərkəzi Afina, Roma, London, Paris olmaqla), 1993-cü ilin sentyabrın 16-28-i Asiyada (mərkəzi Dehli, Tehran, Əbu-Dəbi, Tokio olmaqla), 1996-cı ilin noyabrın 24-ü, dekabrın 16-sı arasında Afrikada (mərkəzi Misir, Rabat, Əlcəzair olmaqla), 1597-ci ilin iyul ayının 26-sı, avqustun 3-ü arasında Amerikada (mərkəzi Florida, Los-Anjelos, Vaşinqton, Buenos-Ayres, Ottava, Karakas olmaqla)... eləcə də Şərqi Avropada - 1998-ci ildə (mərkəzi Buxarest, Praqa olmaqla) erməni diasporunun "Müdafiə birlikləri" yarandı. Və bu birliklərin bir qismi xeyriyyə təşkilatları kimi qeydiyyatdan keçərək, fəaliyyət göstərir. Dünyada isə 869 irilixırdalı erməni təşkilatı qeyri-leqal iş görür. Xeyriyyəçilik adı altında fəaliyyət göstərən bu hərbi-siyasi, strateji qurumların maliyyə yardımları, proqram və sənədləri, dünyaya "diplomatik" çıxışları bilavasitə aşağıdakı erməni diaspor mərkəzləri tərəfindən necə deyərlər tənzimlənir, qaydaya salınır:

a) Erməni Katolik Kilsəsi (dünyanın 56 ölkəsində mərkəzi var);

b) Amerikanın Erməni Assambleyası (22 ştatı əhatə edir);

c) Erməni hüquqçular Assosiasiyası (Avropa ölkələri üzrə);

d) Erməni Ümumdünya Yevangelist Şurası (Avropa ölkələri üzrə);

e) Erməni Ümumi Xeyriyyə İttifaqı (mərkəzi Nyu-York, London);

q) Amerikanın Erməni Missioner Assosiasiyası (MDB ölkələri istiqamətində);

ə) Amerikanın Erməni Milli Komitəsi;

k) Humanitar yardım göstərilməsi üzrə Şimali Amerika Erməni Cəmiyyəti;

g) Erməni Apostol kilsəsinin Şərqi Yeparxiyası;

j) Erməni Apostol kilsəsinin Qərbi Yeparxiyası;

h) Vartan cəngavəri;

x) Erməni Apostol kilsəsinin Şərqi Yepiskopal İdarəsi;

l) Erməni Apostol Kilsəsinin Qərbi Yepiskopal İdarəsi.

Həmçinin 1997-ci ilin yanvar ayının 7-də bu təşkilatların imzası ilə ABŞ Administrasiyasına, eks-prezident Klintonun adına Dağlıq Qarabağla əlaqədar ciddi bir məktub da göndərmişdi. 2001-ci ilin fevral ayının 18-də isə həmin məktub kiçik bir redaktə ilə ABŞ-ın yeni prezidenti Cənab Corc Buşun (oğul) adına göndərilir. Məktubda Yazılır: "... Cənab Prezident! Dağlıq Qarabağın öz müqəddəratını təyin etmək hüququnun alternativi yoxdur. Əsas hüququ seçmək azadlığı olmadan möhkəm sülh ola bilməz. Özünə bu hüququ Dağlıq Qarabağ xalqı ağlasığmaz qurbanlar vermək yolu ilə qazanmışdır. Birləşmiş Ştatlar bu əsas hüquqdan dincliklə istifadə etməyə çalışan Qarabağ xalqının tərəfində durmalıdır. Məhz həmin prinsiplə Birləşmiş Ştatlar köhnə xətt tutan, qonşulara qarşı iqtisadi blokadanı genişləndirən və müntəzəm surətdə dəstəkləyən, irqçilik şüarlarından və birliyə kömək etməyən, Ermənistan və Dağlıq Qarabağ xalqını olmazın müsibətlərə düçar edən şüarlardan istifadə edən Azərbaycan hökumətinə haqq qazandırmamalıdır...

***...Azərbaycana və regionunun başqa ölkələrinə demək lazımdır ki, Dağlıq Qarabağın təhlükəsizliyi üçün yeganə təminat onun öz gələcəyini seçmək hüququdur..."***

**(ardı gələn sayımızda)**

***Strateji əhəmiyyətli belə bir kompleksin erməni Mixail Poqosyana həvalə edilməsinə ötəri yanaşmayaq. Mixail Poqosyan 1946-cı ildə Xankəndində anadan olub və Azərbaycan vətəndaşıdır. O, həm də RF-də erməni diasporuna başçılıq edən liderlərdən biridir. 2000-ci ilin avqustunda on bir dildə çap olunan "Dağlıq Qarabağın erməni diasporu üçün strateji əhəmiyyəti" kitabının müəllifidir. "Beynəlxalq erməni diasporu"nun Paris şöbəsinin (1999-cu il) koordinatorlarından biridir. Və yaxud, Səudiyyə Ərəbistanında ixtisasca tarixçi olan Əşrəfbəy Fazilyanın ermənilərin yenicə (2001-ci il, fevralın 24-ü) yaratdıqları diaspor mərkəzinin yeni koordinatoru təyin edilməsi də maraq doğurmaya bilmir. Hansı ki, Əşrəfbəy Fazilyan elə həmin ərəfədə RF-in Məkkə şəhərinin konsulu təyin olundu***